**Dövlət Statistika Komitəsində Sənaye və tikinti statistikası şöbəsinin təşkilatçılığı ilə seminar keçirilmişdir**



2013-cü il üçün metodoloji və məlumat istifadəçiləri ilə iş planına uyğun olaraq 2013-cü il 25 oktyabr tarixində Dövlət Statistika Komitəsinin inzibati binasında Aparatın Sənaye və tikinti statistikası şöbəsinin təşkilatçılığı və bir sıra dövlət orqanlarının, müəssisə və təşkilatların və KİV nümayəndələrinin iştirakı ilə seminar keçirilmişdir. Seminarda Sənaye və tikinti statistikası şöbəsi müdirinin müavini Elnur Əlili “Sənaye və tikinti statistikası sahəsində statistik uçotun onlayn rejiminə keçidi ilə bağlı görülən işlər, yaranan problemlərin həlli yolları” mövzusunda təqdimatla çıxış etmişdir. O öz çıxışında statistik hesabatların onlayn vasitəsilə əldə edilməsinin vacibliyindən bəhs etmiş və onlayn sistemə keçid prosesində qarşıya çıxan problemlərə toxunmuşdur. Şöbə müdirinin müavini Əbülfəz Kərimov “Enerji balansı və enerji səmərəliliyini əhatə edən göstəricilər” mövzusu üzrə çıxış etdiyi təqdimatda enerji statistikasının təşkili, enerji balansı, onun prinsipləri və məqsədi, milli enerji balansının strukturu və enerji səmərəliliyi barəsində danışmışdır.

Tədbir sonda diskussiya şəklində davam etdirilmişdir.

